

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 iyul 2023-cü il №53 (2765) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəvəti ilə iyulun 14-də Belçika Krallığına işgüzar səfər edib.*

Avropa İttifaqı Şurasının mənzil-qərargahında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel dövlətimizin başçısı İlham Əliyevi qarşılayıb.

Birgə foto çəkdirilib.

Sonra Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə görüşü olub.

Prezident İlham Əliyev işgüzar səfərə dəvətə görə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelə minnətdarlığını bildirib.

Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində Şarl Mişelin göstərdiyi səylərə görə təşəkkürünü ifadə edən dövlətimizin başçısı Brüssel formatının səmərəli olduğunu vurğulayıb.



Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə keçiriləcək üçtərəfli danışıqlar, həmçinin Ermənistan ilə Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb.

* * *

İyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olub.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Brüsseldə keçirilən bu danışıqlar Vaşinqton görüşünün davamı kimi qiymətləndirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri iyulun 15-də başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla görüşdən sonra mətbuata açıqlama verib

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.

AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Prezident Əliyev və baş nazir Paşinyanla altıncı görüşü indicə yekunlaşdırdıq. Bizim müzakirələrimiz yenə də səmimi, dürüst və məzmunlu oldu. Görüşümüz mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirlərin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada, həmçinin sərhəddə intensiv və məhsuldar keçirilən yüksək səviyyəli görüşlər silsiləsinin davamı oldu.

Biz Ermənistan ilə Azərbaycan arasında danışıqların ən əhatəli və mürəkkəb mərhələlərindən birini keçirik. Mən liderləri sülh prosesinə güclü sadiqliklərinə görə təqdir etdim. Mən onları normallaşma yolunda qəti və dönməz irəliləyişi təmin etmək üçün daha cəsarətli addımlar atmağa çağırdım. Baxmayaraq ki, görüşümüz gərginliyin artması fonunda baş tutdu, mən siyasi müzakirələrdə və səylərdə mühüm irəliləyiş olduğunu qeyd etdim.

Biz gündəlikdə olan bütün məsələləri müzakirə etdik.

**Suverenlik və ərazi bütövlüyü.** Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqlədilər.

**Sərhədlərin delimitasiyası.** Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı sadiqliklərini bir daha təsdiq etdilər.

Mən hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışladım. Bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edilib.

Ən mühümü isə odur ki, liderlər komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəliblər.

**Kommunikasiyalar.** Bu məsələyə gəldikdə, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail oldular. Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik.

Dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır.

**Humanitar yardımlar.** Qarabağın erməni əhalisinin vəziyyətini, Laçın dəhlizi ətrafında vəziyyəti müzakirə etdik. Aydındır ki, mövcud vəziyyət dayanıqlı deyil və heç kimin marağına uyğun gəlmir. Vəziyyətin normallaşmasına kömək üçün mümkün konkret addımları da müzakirə etdik.

Mən Laçın yolunun açılmasının vacibliyini vurğuladım. Mən Azərbaycanın Ağdamdan humanitar yardımların təmin etmək istəyini də qeyd etdim. Mən hər iki variantı vacib hesab edirəm və əhalinin ehtiyaclarının təmin olunması üçün hər iki tərəfdən humanitar yardımların çatdırılmasını dəstəkləyirəm.

Mən, həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən tibbi təxliyənin bərpasını da alqışladım.

**Hüquqlar və təhlükəsizlik.** Yerli əhalinin ilk növbədə hüquqlarının və təhlükəsizliyinin təmin olunmasına ehtiyacı var.

Mən bu kontekstdə Avropa İttifaqının Bakı ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin nümayəndələri arasında birbaşa dialoqu dəstəklədiyini bildirdim.

Bu dialoq bütün tərəflər üçün çox vacib olan etimadı təmin etməlidir.

**Saxlanılanlar.** Biz saxlanılanlar məsələsini də müzakirə etdik. Liderlər alicənablıq anlayışına sadiqliklərini bir daha təsdiqlədilər və bununla da ehtiyatsızlıqdan qarşı tərəfə keçən əsgərlərin azad olunması asanlaşacaq.

Mən hər iki tərəfdən saxlanılanların azad edilməsinin tərəfdarı olduğumu bildirdim.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi və minatəmizləmə üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyi də müzakirə olundu. Mən bir daha tərəfləri mümkün qədər çox məlumat mübadiləsi aparmağa çağırdım.

**Hadisələrin inkişafı.** Biz razılaşdıq ki, komandalarımız bu gün müzakirə olunan məsələlərin daha konkret inkişafını təmin etmək üçün sıx təmasda olacaqlar. Real inkişaf isə yaxın gələcəkdə atılmalı olan növbəti addımlardan asılıdır.

Əsas prioritet isə odur ki, sülh və normallaşma danışıqlarına lazımi şəraiti təmin etmək üçün zorakılıq və sərt ritorika dayandırılmalıdır.

Mən, həmçinin Ermənistan və Azərbaycan liderlərinə yaydan sonra Brüsseldə növbəti görüşə dəvət etmək niyyətimi bir daha bildirdim. Bundan əlavə, "Avropa siyasi birliyi"nin növbəti Zirvə toplantısı çərçivəsində Qranadada Fransa və Almaniya liderlərinin də iştirakı ilə beştərəfli görüş təklifimi də diqqətə çatdırdım.

# Azərbaycan və Gürcüstan Müdafiə nazirliklərinin nümayəndələri arasında görüş keçirilib



İyulun 17-də müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirov ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Respublikası Müdafiə Qüvvələri komandanının müavini general-mayor Zaza Çxaidzenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-leytenant Ramiz Tahirov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan ilə Gürcüstan arasında digər istiqamətlərdə olduğu kimi hərbi aviasiya və hava hücumundan müdafiə sahələrində də əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti xüsusi vurğulanıb. Qonaqlar, həmçinin Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar barədə məlumatlandırılıb.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən general-mayor Z.Çxaidze öz növbəsində göstərilən diqqətə və yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsində bu cür görüşlərin əhəmiyyəti qeyd olunub.

Görüşdə, həmçinin regionda sülhün və təhlükəsizliyin təmin olunması, birgə hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.



Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Quruculuq işləri Zəfərdən sonrakı növbəti zəfər olacaq!

İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri başlayıb. Yollar çəkilib, çəkilir, infrastrukturlar yaradılıb, yaradılır, su elektrik stansiyaları fəaliyyətə başlayıb. Kəndlər, şəhərlər yenidən qurulur. Bu proses Zəfərin davamıdır. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işləri də zəfərlə başa çatacaq. 2023-cü ili də bu ovqatla yaşayırıq - Azərbaycan naminə, azərbaycançılıq naminə.

Hərbi hissədə olduğumuz zaman əsgərlərin asudə vaxtı idi. İkinci Qarabağ müharibəsini, döyüşləri, qazanılan Zəferi xatırlamışdılar. Mayor Faiq Mehdiyev Zəfərdən sonra Azərbaycan gerçəkliklərindən söz açmışdı, müharibənin başa çatdığını, müharibədə erməniliyin törətdiklərini xatırlatmışdı, işğaldan azad edilmiş ərazilərimizdə böyük quruculuq işləri getdiyini demişdi. Zabitin dediklərini maraqla dinləyən əsgərlərdən biri bu söhbəti "Zəfərdən sonrakı növbəti zəfər haqqında söhbət" adlandırmışdı. Bu adlandırma hamımızın könlünə yatmışdı. İndi də əsgərlər bir qədər təəssüflə, bir qədər qürurla İkinci Qarabağ müharibəsini xatırladı:

- Onda məktəbli idim. Döyüşlərdən uzaqda olsaq da döyüşləri biz də yaşayırdıq. Mən də digər həmyaşıdlarım kimi döyüşləri televiziyadan izləyirdim. Noyabrın 8-i gecəsi bütün azərbaycanlıların, Azərbaycanı sevənlərin qürur gecəsi idi. İmkanımız olsaydı, Şuşaya kimi qaça-qaça gedərdik.

Əsgər İsaxan Abdullayevin dediklərini həmin vaxtlarda o gün bu əsgər yaşda olanların hamısının niyyəti olduğunu xatırladıq.

- Sizi hərbi xidmətə bu xoş niyyət gətirib, - dedim. Xoş təbəssüm, xoş təbəssümün sarıldığı ovqat işığa dönüb, bu görünməyən, duyulan, hiss edilən işıq hərbi xidmətdən mülki həyata aparacaq yolu nişan verir:

- İşğaldan azad edilmiş ərazilərdə quruculuq işləri uğurla davam edir. Murov dağdan Kəlbəcərə açılan tunel bu işlərin başlanğıcı oldu. İstifadəyə verildikdən sonra bu tunel yolu qısaldacaq, qışda, qarda-sazaqda təhlükələri aradan qaldıracaq, - əsgər Malik Arzumanov belə dedi. Bu fikir digər əsgərlərin düşüncələrini tərpətmişdi, onlar da söhbətə qoşulmuşdu. Zəfərdən sonrakı növbəti zəfər haqqında danışılanlar da Azərbaycan əsgərinin mənəvi dünyasının genişliyinin



ifadəsiydi. Onların dedikləri İkinci Qarabağ müharibəsi iştirakçılarının döyüş təəssüratlarını dinlədiyimiz maraqla, sevgi ilə dinlədik:

- Əsgər İlham Qurbanovun atası Cəbrayıldan çıxanda 12 yaşı varmış. İlham deyirdi ki, atam Cəbrayılı hər gün xatırlayırdı. Ali Baş Komandanın əmri ilə döyüşlər olacağına, torpaqlarımızın işğaldan azad ediləcəyinə atam da inanırdı. Hərdən deyirdi ki, icazə versələr mən də döyüşəcəm. Döyüşlər oldu. Atamı döyüşlərə aparmadılar. Cəbrayıl da işğaldan azad edildi. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərində atam da iştirak edir.

- Atan döyüşlərin əsgəri ola bilməsə də quruculuq işlərinin əsgəridi, - zabit F.Mehdiyev belə dedi.

- Tərxis edildikdən sonra əsgər yoldaşlarımın əksəriyyəti quruculuq işlərinə getməyə qərarlıdı, - əsgər inamla, minnətdarlıqla əsgər yoldaşlarına baxdı. Bu baxışlar mənə döyüşlərin iştirakçısı olmuş bir zabitin döyüş təəssüratlarını xatırlatdı.

Döyüşlərin gedişində əsgərlər bir-birini bir baxışla başa düşürdü, məsafə imkan verəndə güllə, mərmi səsləri içində döyüşü necə davam etdirməyi bir-birlərinə baxış diliylə anladırdılar. Neçə mövqe qələbəsi belə qazanılmışdı. Bugünkü baxışlar da quruculuq işlərində niyyətlərin ünvanını nişan verdi: Əsgərlər hərbi xidmətdən tərxis edildikdən sonra Vətən naminə quruculuq işlərinin əsgəri olacaqlar. "Əsgər" şərti adlandırmadı. Yəni onlar Vətənə sədaqətlə xidmət etdikləri kimi quruculuq işlərində də əsgəri məsuliyyətlə işləyəcəklər. Düşündüklərimi əsgər Vüsal Abbasovun dedikləri tamamladı:

- Mən ali təhsil almaq istəyirəm. Ancaq qiyabi oxuyacam. Mənə elə gəlir ki, işğaldan azad edilmiş ərazilərdə gedən quruculuq işlərində iştirak, Vətən müharibəsində iştirak etmiş əsgərlərimizin davamçısı olmaqdır. Onlar Vətən üçün döyüşmüşdülər, biz Vətən üçün işləyəcəyik.

- Atam Birinci Qarabağ müharibəsi əlili idi. Döyüşlərdə iştirak etmədi. Torpaqlarımız işğaldan azad edilәndə çox sevinmişdi. Ancaq Ağdama, ata yurduna getmək ona nəsib olmadı. Atamın istəyini mən gerçəkləşdirəcəm. Tərxis ediləndən sonra Ağdamda atamın ata yurduna da gedəcəm, Ağdamda gedən tikintilərdə işləyəcəm də. Vətən borcumu yerinə yetirdiyim kimi övladlıq borcumu da yerinə yetirəcəm. Atam həmişə "Zəfər ruhumu dustaqlıqdan azad elədi, ay oğul...", - deyirdi. Quruculuq işlərində iştirakım atamın ruhuna təsəlli olacaq, - neçə ay əvvəl bir əsgərin başqa bir əsgərə dediklərini xatırlatdım...

Silahlı Qüvvələr günü ərəfəsində hərbi hissələrdən birində "Əsgərdən məktub gəlib" layihəsini başa çatdırmışdıq. Əsgərlərlə söhbətləşirdik. Söz sözü çəkmişdi. İşğaldan azad edilmiş ərazilərdə davam edən quruculuq işlərindən danışırdıq. Zabitin quruculuq işlərinin Zəfərin davamı olduğunu xatırlatması əsgərləri duyğulandırdı. Əsgərlər ermənilərin bir-iki saata dağıtdığı bir evin, bir aya tikilə biləcəyini xatırlatdılar:

- Buna qüvvə lazımdı. Qüvvə - bizik, qüvvə - xalqdı. Tikəcəyik. Kəndlərimiz əvvəlkindən də yaxşı olacaq. İkinci Ağalı kəndi kimi, Talış kəndi kimi, Laçın kimi.

- Torpaqlarımız işğaldan azad ediləndə bir Ana demişdi ki, qarşıma çıxan ilk əsgəri şəhid oğlum əvəzi bağrıma basacam, böyük yoldan evimizə kimi dizin-dizin gedəcəm. O Ananın oğulları əlbəttə ki, quruculuğun əsgəri olacaqlar. Onlar ata yurduna bu ruhla qayıdacaqlar, ata yurdunda bu ruhla ocaq çatacaqlar, - dedim.

Əsgər Ruslan Ələsgərov maraqlı, qürurverici bir fakt xatırladı:

- İki qardaş tanıyıram. Səməd hərbi xidmətdən bu il, böyük qardaşı Vasif ötən il tərxis edilib. Vasif buldozerçi idi, Səməd sürücü. İndi ikisi də işğaldan azad edilmiş ərazilərdə işləyir. Hərbi xidmətdə olduğuma görə görüşə bilmirik. Görüşəndə "Hərbi xidmətdən sonra quruculuq işlərini hərbi xidmətin mənəvi davamı bilirik" deyəcəklərinə əminəm. Azərbaycan əsgərlərinin düşüncələri nə qədər bəşəri düşüncələrdi, nə qədər yurd mehirli düşüncələrdi!

Əsgərin dediklərini bir sorğuya vasitə etdim:

- İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfərin qüdrətidir ki, böyük quruculuq işləri gedir. Yaxın vaxtlarda işğaldan azad edilmiş ərazilərdə erməniliyin nişanələri qalmayacaq. Quruculuq işlərinə Zəfərin davamı deyə bilərikmi?

- Əlbəttə, deyə bilərik. Zəfərin işğaldan azad etdiyi ərazilərdə işləmək də vətəndaşlıqdı. Biz yaxşı əsgər olduğumuz kimi, yaxşı da vətəndaş olacağıq. Zəfər qazanmağa yaşımız imkan vermədi, Zəfərdən sonra başlayan quruculuq işlərində tərxis edilən əsgərlər də böyük məsuliyyətlə iştirak edəcək, - əsgərlər belə dedilər.

- Hərbi xidmətə gəlməmiş televiziyada işğaldan azad edilmiş kəndləri görəndə ürəyimiz qan ağlayırdı. Sonralar Ağalı kəndini görəndə əmin olduq ki, bütün kəndlərimiz yenidən qurulacaq. Çoxlarının ürəyindən keçdi ki, o da yenidən qurulan kəndlərdə daş üstə daş qoysun. Mən də o çoxlarından biri olmuşdum. Bir neçə aydan sonra tərxis olunacam. Bir neçə ay üstəgəl beş-on gün, niyyətimin ünvanında olacam, - əsgərlər belə də dedilər...

Mayor Elman Əsgərov maraqlı bir məqamı xatırlatdı:

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev may ayının 28-də Laçına səfərində qeyd etdi ki, Laçında tibb məntəqəsi hazırlanır, məktəb yeni dərs ili üçün hazır olacaq. Onlarla müəssisə yaradılacaq, Aqro və Sənaye Parkı yaradılmaqdadır, 7-8 ay ərzində 700 bina tikilib ki, bunun da 620-si fərdi yaşayış binasıdır, 9 çoxmənzilli binanın da tikintisi başa çatıb. Laçınlıların Laçına qayıdışı başlayıb. Bu qayıdış Böyük Qayıdışın başlanğıcıdır.

Ötən il Kəlbəcərdəydim. Zəfər muzeyinin tikintisində iştirak edənlərlə kəlmələşmişdik. Fəhlələrdən biri sözarası demişdi ki, hərə gündə bir daş artıq qaldırsa, divar bir gün tez ucalar, bina üç gün, beş gün tez təhvil verilər. Belə tikinti rayonun aylarla tez dirçəlişi olar. Belə işləyəcəyik. Əsgərlərin söhbətlərini Kəlbəcərdə fəhlələrin dediklərinin davamı bildim.

Yaşadığımız gözəl könül xoşluğunu işğaldan azad edilmiş ərazilərdə yollar çəkənlərimizə, körpülər quranlarımıza, evlər, binalar tikənlərimizə, aeroportlar yaradanlarımıza, gərəkli infrastrukturlar quranlarımıza, ... əsgər xeyirduası bilirik, bu xeyir-dua həm də bir vədin zəmanətidi: Sıranıza gələcəyik!..

Əsgərlər əminliklə dedi ki, quruculuq işləri Zəfərdən sonrakı zəfər olacaq!

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# NESA-nın nümayəndə heyəti Milli Müdafiə Universitetini ziyarət edib

Ölkəmizdə səfərdə olan Yaxın Şərq və Cənubi Asiya regionu (NESA) üzrə Təhlükəsizlik Məsələlərinin Araşdırılması Mərkəzi nəzdində Cənubi Afrika Milli Müdafiə Birliyi (SANDU) Strateji Tətbiqetmə şöbəsinin rəisi cənab Çarlz B.Marksın rəhbərlik etdiyi nümayəndə heyəti Milli Müdafiə Universitetini ziyarət edib.



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Milli Müdafiə Universitetinin rektorunun elm üzrə müavini - Hərbi Elmi Tədqiqat İnstitutunun rektoru general-mayor Arif Həsənov qonaqları salamlayaraq, onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Nümayəndə heyətinə Milli Müdafiə Universitetinin yaranma tarixi, onun nəzdindəki hərbi təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətləri, strukturu və qarşıda duran vəzifələri ilə bağlı ətraflı məlumat verilib.

Görüşdə ikitərəfli əməkdaşlığın genişləndirilməsi baxımından bu cür görüşlərin zəruriliyi xüsusi qeyd edilib, Milli Müdafiə Universiteti ilə NESA üzrə Təhlükəsizlik Məsələlərinin Araşdırılması Mərkəzi arasında əməkdaşlığın inkişaf perspektivləri, eləcə də maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

# Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir

Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının hissə və bölmələrinin fəaliyyəti nəticəsində azad edilmiş ərazilərdə cari ilin iyul ayı ərzində 610 hektaradək ərazi minalardan tam təmizlənib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, işğaldan azad edilmiş ərazilərdə bu günə kimi mühəndis-istehkam bölmələri tərəfindən 32285 hektar ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib. Ümumilikdə 10207 ədəd piyada əleyhinə, 2580 ədəd tank əleyhinə mina və 10447 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq məhv edilib.

Bundan başqa, mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyət nəticəsində yeni təminat yolları çəkilib. Cari ilin iyul ayı ərzində 70 km-dən artıq mövcud təminat yolları təkmilləşdirilərək bərpa edilib.

Mina təmizlənmə işlərində əsas səylər azad edilmiş ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

Qeyd olunan ərazilərdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.



*Təlim*

# “Torpaqlarımızın müdafiəsi etibarlı əllərdədir”

Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirildi, demokratik, hüquqi, dünyəvi dövlət quruldu, ölkənin ərazi bütövlüyü bərpa edildi, bir çox mühüm tədbirlər həyata keçirildi.

Bütün sahələrlə yanaşı, ordu quruculuğu istiqamətində də ardıcıl və məqsədyönlü tədbirlər görüldü. Azərbaycan xalqının Ümummilli Liderinin apardığı məqsədyönlü və qətiyyətli siyasət nəticəsində Milli Ordu formalaşdırıldı və Azərbaycanın nizami Silahlı Qüvvələri yaradıldı. Nəticədə fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ordu quruculuğu bu gün də diqqət mərkəzində saxlanılır.

Dövlət başçısının sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu yeni-yeni zirvələr fəth edib, hərb tariximizə şanlı səhifələr yazdı. Bu zirvələrdən ən başlıcası isə 44 günlük Vətən müharibəsi oldu. Haqq savaşımızla tarixə yeni və şanlı salnamə yazıldı. Qeyd etmək istərdim ki, döyüşlər zamanı ordumuzun bütün qoşun növləri vəzifələrinin öhdəsindən bacarıqla gəldilər. Bu savaşda artilleriyaçılarımızı xüsusilə vurğulamaq istəyirəm. Müharibə zamanı onların dəqiq hesablamalar çıxararaq, düşmənin bir çox mühüm və strateji əhəmiyyətli hərbi obyektlərini, texnikalarını, komanda məntəqələrini, atəş nöqtələrini və sığınacaqlarını məhv etdilər. Ən əsası isə peşəkar artilleriyaçılarımız irəliləyən qüvvələrimizə dəstək olub, onların yolunu kəsən düşmən qüvvələrini zərərsizləşdirdilər.

"N" hərbi hissəsində olduğumuz zaman düşmən qüvvələrinin məhv edilməsində iştirak edən artilleriyaçıların dərs prosesinin şahidi olduq. Polkovnik-leytenant Raciv Babaverdiyevin nəzarəti altında şəxsi heyət müxtəlif döyüş tapşırıqlarını məşq edirdi. "Dərs kiçik döyüşlə başladı: "Günün nizam qaydalarına uyğun olaraq, əsgərlərimiz keçirilən dərs proseslərində nəzəri biliklər öyrənməklə yanaşı, müəyyən təcrübələrə də yiyələnirlər. Təlimlərin və



keçirilən döyüş hazırlığı dərslərinin əsgərlərimizin formalaşmasında əhəmiyyəti olduqca böyükdür. Çünki bunların köməkliyi ilə onlar dəqiqlik, konkretlik, çeviklik, intizamlılıq, dözümlülük kimi vərdişləri öyrənib, peşəkar döyüşçü kimi formalaşırlar".

Zabitlə söhbətimizdən sonra şəxsi heyətlə kəlmələşir, fikir və düşüncələrini qələmə alırıq.

Top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elçin Qasımov Vətən müharibəsi iştirakçısıdır. "Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan Vətən müharibəsində komandiri olduğum heyətlə birlikdə iştirak etdik. İrəliləyən bölmələrimizi artilleriya atəşləri ilə dəstəkləyib, işğalçıların mövqelərini darmadağın etdik. Düşmən rəşadətli Azərbaycan Ordusunun qarşısında tab gətirə bilmədi. 44 gün ərzində tarixi torpaqlarımızı azad edib, xalqımıza illərdir həsrətlə gözlədiyi qələbə sevincini yaşatdıq. Dəqiq atəşlər nəticəsində düşməndən şəhidlərimizin qisasını alıb, doğma torpaqlarımızı işğaldan azad etdik. Bununla da dövlət başçısının, ordu rəhbərliyinin və xalqımızın bizə olan etimadını doğruldaraq düşmən üzərində qələbə qazandıq. Bununla kifayətlənən deyilik. Hər gün, hər an öz üzərimizdə çalışacaq, döyüş, atış, fiziki və mənəvi-psixoloji hazırlıqlarımızı artıracağıq", - dedi çavuş E.Qasımov.



Qeyd edək ki, torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elçin Qasımov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Qubadlının azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Baş tuşlayıcı əsgər Tuqay Kərimli isə bildirdi ki, artilleriyada dəqiqlik böyük əhəmiyyət daşıyır. "Məşğələ prosesində dəqiq hesablamalar apara-apara dərinlikdə yerləşən şərti düşmənin canlı qüvvəsini, komanda məntəqələrini, mövqelərini, istehkam qurğularını məhv edirik. Komandirlər mütəmadi olaraq məşğələlər keçərək, bizə artilleriyanın və hərbi sirləri dərindən öyrədirlər. Keçirilən məşğələlərin nəticəsidir ki, biz verilən istənilən komandanın öhdəsindən asanlıqla gəlirik", - deyə əsgər bildirdi.

İmişli rayonundan hərbi xidmətə çağırılan əsgər Samir İmanov xidmətə başlamazdan əvvəl çox həyəcanlı olduğunu deyərək söhbətə başladı. "Düşünürdüm ki, xidmət zamanı çətinlik çəkəcəyəm. Lakin ilk gündən etibarən peşəkar komandirlərin kömək və dəstəyi ilə hərbi sirlərə dərindən yiyələndim. Bir neçə ay ərzində əsl döyüşçü kimi formalaşdım".

Sonra əsgərlər onlar üçün yaradılan şəraitdən danışdılar. Dedilər ki, "Məişət şəraitimiz, sosial təminatlarımız olduqca yüksəkdir. Heç nədən korluq çəkmirik. Ailəmizlə danışmaq istəyərkən günün nizam qaydalarına uyğun olaraq hərbi hissənin ərazisində quraşdırılmış taksafon vasitəsi ilə əlaqə saxlayırıq. Müasir standartlara cavab verən ideoloji otaqda televizora baxır, informasiya proqramlarını izləyirik. Fiziki cəhətdən daim sağlam, gümrah və güclü olmağımız üçün bütün idman alətləri ilə təmin olunan idman şəhərciyimizdə məşq edirik. Hərbi hissənin yeməkxanasında çalışan aşpazlarımız da hər zaman dadlı və keyfiyyətli yeməklər bişirirlər. Bunlarla yanaşı, təcrübəli və qayğıkeş komandirlərimiz bizə doğma münasibət göstərir, daim qayğılarımızla maraqlanırlar. Əlbəttə, bu cür diqqət və qayğının qarşılığında hər birimizin üzərimizə düşən əsas vəzifə - xidmətimizi düzgün təşkil edib, Vətənimizə layiqli əsgər olmaqdır".

Söhbətimizə qoşulan əsgər Murad Əhmədov isə dedi ki, artilleriya bölmələri döyüşün gedişinə təsir göstərən əsas amillərdən biridir. Çöl şəraitində keçirilən dərslər və təlimlər zamanı müxtəlif atəş tapşırıqlarını yerinə yetirməklə yanaşı, döyüş vərdişlərimizi daha da təkmilləşdiririk.

Əsgərlər Tural Məmmədzadə, Eltac Mamedli də hərbi xidmətdən, silah və texnikaların taktiki-texniki xüsusiyyətlərindən, sosial-məişət şəraitlərindən, göstərilən diqqətdən, döyüş hazırlıqlarından, hərbi xidmətdə keçirdiyi günlərdən ətraflı söhbət açdılar. Regionun ən güclüsü olan və rəşadətli Azərbaycan Ordusunun əsgəri olmalarından fəxr etdiklərini dedilər. Əlbəttə, məğrur əsgərlərimizin döyüş hazırlıqlarını artırmalarını əyani olaraq gördüyümüz zaman əminliklə deyə bilərik ki, torpaqlarımızın müdafiəsi etibarlı əllərdədir.

**Kapitan
Orxan HÜSEYNLİ
"Azərbaycan Ordusu"
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

*"Hər bir vətəndaş, hər bir azərbaycanlı hiss etməlidir ki, indi Vətəni qorumaq üçün hərə öz payını verməlidir, hərə öz yerini tapmalıdır. İndi hər kəs müsəlləh əsgər olmalıdır. Bundan artıq vəzifə yoxdur". Bu fikirlər Azərbaycan xalqının Ümummilli Lideri, müdrik dövlət xadimi, müasir ordu quruculuğu və hərbi təhsil sahəsində əldə olunan inkişafın, ümumən ordu quruculuğunda qazandığımız uğurların təməlini qoymuş Heydər Əliyevin xalqımıza səsləndiyi azadlıq çağırışlarındandır.*

# Hərbi liseylərin "Heydər Əliyev İli"ndə qazandığı böyük uğurlar



Azərbaycan Ordusunun nizami ordu kimi formalaşmasında müstəsna xidmətləri olan Heydər Əliyevin hərb tariximizdəki zəngin irsi xalqımızın milli sərvətidir.

Elm və təhsilin səviyyəsinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində Müdafiə Nazirliyinin ştat strukturuna daxil olan xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətlərinin təkmilləşdirilməsi və hərbi təhsil sisteminin inkişafı, Azərbaycan Ordusunun ali təhsilin bütün pillələri üzrə ixtisaslı kadrlarla təminatı, yüksək ixtisaslı elmi, elmi-pedaqoji kadrların hazırlanması, elmi nəticələrlə ölkənin müdafiə qüdrətinin artırılması, ordu quruculuğunda effektiv tətbiqi, hərbi təhsil sisteminin qardaş Türkiyə Respublikasının, eləcə də digər inkişaf etmiş ölkələrin hərbi təhsil sisteminə uyğunlaşdırılması məqsədilə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 mart 2022-ci il tarixli fərmanı ilə Milli Müdafiə Universiteti yaradıldı. Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına hərbi liseyin və Heydər Əliyev adına hərbi liseyin fənn proqramları Elm və Təhsil Nazirliyi ilə razılaşdırılaraq yenidən işlənildi. Bununla da, müasir tələblərə cavab verən fənn proqramları hazırlandı. Hərbi liseylərin maddi-texniki bazasının gücləndirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi Milli Müdafiə Universitetinin daim diqqət mərkəzindədir.

Tədrisin təşkilinə elmi və konseptual yanaşma, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi liseyin təcrübəli müəllim heyətinin gündəlik fəaliyyətinin əsasını təşkil edir. Hərtərəfli qayğı və diqqətlə əhatə olunan hərbi liseylərin uğurları özünü qısa zamanda bütün sahələrdə göstərdi. Belə ki, XI sinif buraxılış imtahanlarının ilkin təhlili ilə əlaqədar Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 5 aprel 2023-cü il tarixdə mətbuatda çıxışında "hərbi liseylərin nəticələri ölkənin orta göstəricilərindən də yüksəkdir" deməsi gözlənilən idi. Bu nəticə bizi qürurlandırmaya bilməzdi - Heydər Əliyev ilində qazanılan uğuru ordu quruculuğumuza xidmətin nəticəsi bilirik.

Yüksək təhsil nəticəsinin qazanılması, əldə olunan uğurları hərbi liseylərin pedaqoji kollektivinin və kursantların fədakar əməyinin məntiqi nəticəsi kimi qiymətləndirmək olar.

Cəmşid Naxçıvanski adına hərbi liseydə tədrisin keyfiyyətinin yüksəldilməsində və intizamın möhkəmləndirilməsində polkovnik-leytenant Ceyran Abbasova, mayor Aygün Hüseynova, mayor Orxan Bəkirov, Lalə Hacıyeva, Rəna Seyidrzayeva, Səbinə Əsgərova, Heydər Əliyev adına hərbi liseydə Azərbaycan Respublikasının əməkdar müəllimi Təyidə Bağırova, Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi Məryəm Vəlibəyova, Günay Məmmədova, İlahə Həsənova, Ayşən Əsgərova, Mətanət Eminova, Səadət Hüseynli, Fuad Həsənov, Şahin Tarverdiyev və Rüstəm Hüseynov fərqlənmişlər.

Cəmşid Naxçıvanski adına hərbi liseyin kursantları - Emil Bayramlı, Turan Ramazanov, Ramid Gənciyev, Heydər Novruzov, Mirəli Abbaszadə, Elxan Səfərli, Elariz Mustafayev, Məhərrəməli Möhsümov, İbrahim Əzimli, Arif Xəlilli, Kənan Səfərov, Amar Hüseynov, Zahid Əmirxanov, Kənan Abbaszadə, Əli Zamanov, İlkin İsmayılov və Məqsəd Səfərov buraxılış imtahanlarında yüksək nəticə göstərmiş, intizamı və fiziki hazırlığı ilə fərqlənmişlər.

Heydər Əliyev adına hərbi liseyin buraxılış imtahanlarında da kursantlar Anar Məmmədli, İsmayıl Qasımlı, İlkin Hüseynli, Zamin Təmoyev, Samir İbrahimov, Samir Xuduyev və Murad Süleymanov yüksək nəticə göstərmiş, intizamı və fiziki hazırlığı ilə fərqlənmişlər.

Bu uğurların əsasını Vətəni, xalqı qarşısında və ordu quruculuğunda misilsiz xidmətləri olan müdrik dövlət xadimi, dahi siyasətçi Ulu Öndər Heydər Əliyevin əvəzolunmaz xidmətləri, bu xidmətlərin onun tövsiyələrini dövlətçiliyə sədaqət kimi davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətçilik siyasəti təşkil edir. Hələ 1971-ci ildə Ulu Öndərin zəkası, uzaqgörənliyi və şəxsi təşəbbüsü ilə "ixtisaslaşdırılmış internat məktəbi" yaradılmışdı, həmin ilin noyabr ayında məktəbin təntənəli açılış mərasimində böyük tarixi şəxsiyyət Heydər Əliyev məktəbə diviziya komandiri Cəmşid Naxçıvanskinin adının verildiyini bildirmişdi. Heydər Əliyevin 1998-ci il 13 mart tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialı, daha sonra isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə bu filialın əsasında Heydər Əliyev adına hərbi lisey yaradıldı.

Hərbi liseylərin Heydər Əliyev ilində buraxılış imtahanlarında qazandığı yüksək nəticələr bizi sevindirir, qürurlandırır. Bu həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin irsinə və ideyalarına sədaqətidir.

Hərbi liseylər Azərbaycan Ordusunun savadlı, peşəkar zabitlərlə komplektləşməsində mühüm rol oynayır. Əminliklə demək olar ki, bu şərəfli missiya uğurla davam edir.

**Polkovnik**
**Yaşar KƏRİMOV,**
**dosent**
**Sevinc ƏLƏKBƏROVA**
**Milli Müdafiə Universitetinin**
**Hərbi Elmi-Tədqiqat İnstitutu**

## **XİN:** Rusiya tərəfi üçtərəfli Bəyanatın tam olaraq yerinə yetirilməsini təmin etməyib

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin 30 ilə yaxın müddətdə ərazilərimizi işğal altında saxlayan Ermənistanın baş nazirinin Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıması faktı kontekstində şərh etməsi və şərtləndirməsi qəbuledilməzdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Xatırladılıb ki, məhz Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla münasibətlərin qurulması üçün beş baza prinsiplərini, sülh müqaviləsi təklifini, eləcə də sərhədlərin delimitasiyası təşəbbüsünü irəli sürən tərəfdir və bu istiqamətlərdə bütün ilkin sənədlərin müəllifidir. Hazırda da Azərbaycan tərəfi sülh müqaviləsinin irəlilədilməsi istiqamətində əməli addımlar atır.

Ölkəmiz, həmçinin Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatlara daim sadiqlik nümayiş etdirib.

Buna baxmayaraq, sözügedən üçtərəfli Bəyanat imzalanan ilk gündən etibarən Ermənistan tərəfi bəyanatın bir çox müddəalarını yerinə yetirməyib və Rusiya tərəfi öhdəlikləri çərçivəsində bəyanatın tam olaraq yerinə yetirilməsini təmin etməyib.

*Hərbi hüquq*

# Hərbi qulluqçuların hüquqları

**Hərbi xidmətdə olan zaman hərbi qulluqçunun təhsil hüququ varmı?**

1. Hərbi qulluqçular hərbi və əlavə təhsil müəssisələrinə daxil olmaq və orada təhsil almaq hüququna malikdirlər.

2. Zabitlər, gizirlər və miçmanlar müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları mülki təhsil müəssisələrinin qiyabi şöbələrində təhsil almaq hüququna malikdirlər.

3. Təhsil müəssisələrində oxuyarkən həqiqi hərbi xidmətə çağırılmış şəxslərin ehtiyata buraxılanda həqiqi hərbi xidmətə çağırılanadək oxuduqları həmin təhsil müəssisəsinə və həmin kursa bərpa olunmaq hüququ saxlanılır.

***Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu, bölmə 2, maddə 14.***

**Hərbi qulluqçuların hər hansı hüquqları məhdudlaşdırıla bilərmi?**

Hərbi xidmətin xarakterindən və şəraitindən, xidmət vəzifələrinin yerinə yetirilməsi xüsusiyyətlərindən asılı olaraq hərbi qulluqçuların Azərbaycan Respublikası vətəndaşları üçün müəyyən edilmiş hüquqla məhdudlaşdırılır:

a) hərbi qulluqçuların tətil hüququ yoxdur;

b) hərbi qulluqçular həmkarlar ittifaqlarının üzvü ola bilməzlər;

v) hərbi qulluqçuların xüsusi sahibkarlıq fəaliyyəti ilə məşğul olması, istehsal və vasitəçilik fəaliyyəti göstərən kooperativlərdə maaşlı ştat vəzifələri tutması qadağandır;

q) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri ilə müəyyən edilən qaydada hərbi qulluqçuların istirahət müddəti məhdudlaşdırıla (xidmət vaxtı artırıla) bilər;

ğ) müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının mülki ali və orta ixtisas təhsil müəssisələrində təhsil almasına icazə verilmir;

d) hərbi qulluqçuların daimi yaşamaq üçün xaricə getməsi qadağandır;

e) hərbi hissələrin yerləşməsi şərtlərinə uyğun olaraq hərbi qulluqçuların yaşayış yeri seçməsi və hərəkət sərbəstliyi məhdudlaşdırılır.

***Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu, bölmə 2, maddə 23.***

**Hərbi qulluqçuların şəxsi sığortası necə həyata keçirilir?**

Hərbi qulluqçuların hərbi xidmət (toplanışlar) dövründə həlak olması (ölməsi), xəsarət (yaralanma, travma, kontuziya) alması, səhhətinin (sağlamlığının) pozulması (xəstəliklə əlaqədar sağlamlığına ziyan dəydikdə), habelə hərbi xidmət vəzifələrini yerinə yetirməsi ilə bağlı bədbəxt hadisələrin nəticələrinin ehtimalına qarşı hərbi qulluqçu statusunu əldə etdikləri gündən onlar dövlət tərəfindən icbari şəxsi sığorta edilirlər.

Hərbi xidmət keçərkən əmək qabiliyyətini itirmiş şəxslərin sosial təminatına dövlət zəmanət verir.

***Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu, bölmə 3, maddə 27.***

**Hərbi qulluqçular inzibati məsuliyyəti, inzibati və cinayət məsuliyyəti daşıyırlarmı?**

1. Hərbi qulluqçular hüquq pozuntuları törətmək üstündə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar. Hərbi rütbəsindən və xidmət vəziyyətindən asılı olmayaraq hərbi qulluqçular qanun qarşısında bərabərdirlər.

2. İntizam nizamnaməsində bilavasitə nəzərdə tutulmuş hallarda hərbi qulluqçular inzibati xətalara görə intizam məsuliyyəti qalan, hallarda isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada inzibati məsuliyyət daşıyırlar.

3. Qeyri-hərbi cinayətlərin törədilməsinə görə hərbi qulluqçular ümumi əsaslarla cinayət məsuliyyəti daşıyırlar. Müəyyən edilmiş hərbi xidmət qaydasına qarşı cinayət törədilməsinə görə onlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə hərbi cinayətlərə görə cinayət məsuliyyəti daşıyırlar.

***Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu, bölmə 4, maddə 30.***

**Müdafiə Nazirliyi**
**Hüquq İdarəsi**

*Nümunəvi xidmət*

# Azərbaycan Respublikasına xidmət edirəm!



**Ali Baş Komandan İlham ƏLİYEV:**

***Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir.***

Hərbi qulluqçunun döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olması ordunun döyüş qabiliyyətinin yüksək olmasının göstəricisidir. Bu gün ordumuzda gənclər üstünlük təşkil edir və hər biri peşəkarlığı ilə seçilir. Onlar hərbi xidməti müqəddəs vəzifə hesab edir, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyur, bundan ötrü qanlarını və canlarını əsirgəmirlər. Yaxın tarixə nəzər salsaq, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində onların göstərdiyi qəhrəmanlıq, şücaət, cəsarət və dözümlülük bütün dünyaya nümayiş olundu. Hazırda da hər bir hərbi qulluqçu torpaqlarımızın müdafiəsi uğrunda istənilən təxribatın qarşısını almağa hazırdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi "Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir" sözləri də hər bir Vətən müdafiəçisinə verilən qiymətin bariz göstəricisidir. Torpaqlarımızın keşiyində dayanan hərbi qulluqçular da cənab Prezidentin bu sözlərini özlərinə göstərilən etimad bilərək, yüksək potensiala malik hərbçilər kimi formalaşmaq üçün bilik və bacarıqlarını daim artırır, ərazi bütövlüyümüzü inamla müdafiə edirlər. Tam əminliklə deyə bilərik ki, bu gün ordu sıralarında vəzifəsinin öhdəsindən bacarıqla gələn vətənpərvər oğullar xidmət edir. Ürəklərində sonsuz Vətən sevgisi ilə onlar hərbi formanı geyinib, hərbçi adını daşımaqdan qürur duyurlar. Hər birinin tək amalı torpaqlarımızın keşiyində qətiyyətlə dayanmaq, ayıq-sayıq xidmət aparmaqdır. Bunun üçün onlar xidmətə məsuliyyətlə yanaşır, rəhbərlik tərəfindən qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırlar.

Belə igidlərdən biri də baş çavuş Mehman Səfərovdur. O, işğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan "N" hərbi hissəsinin Azərbaycan-Ermənistan şərti sərhədində döyüş növbətçiliyi aparan bölməsində xidmət edir. Bu yaxınlarda döyüş növbətçiliyi apararkən qarşı tərəfin təxribat xarakterli fəaliyyətlərini vaxtında aşkarlayaraq yuxarı komandanlığa aidiyyəti üzrə məlumat verdiyinə görə, Mehman Səfərova müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin əmri ilə baş çavuş hərbi rütbəsi verilib, həmçinin birlik komandiri tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılıb. Mehmanla xidməti yerində görüşüb düşüncələrini qələmə aldım.



Səfərov Mehman Mübariz oğlu 5 may 1998-ci ildə Hacıqabul rayonunda anadan olub. Həmin rayonda Şəhid Vidadi Quliyev adına 6 saylı tam orta məktəbdə təhsil alıb. 2018-ci ildə müddətli həqiqi hərbi xidmətini başa vurub. 2020-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarına qayıdıb. İkinci Qarabağ müharibəsinin iştirakçısı olan M.Səfərov Kəlbəcər rayonunun azad olunması uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib. Döyüşlər zamanı göstərdiyi şücaətə və şəxsi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunub.

Baş çavuş Mehman Səfərovla söhbətimiz zamanı vurğuladı ki, Vətən bizə əmanətdir, biz Vətən keşikçiləriyik, üzərimizə düşən müqəddəs vəzifəni layiqincə yerinə yetirmək hər birimizin mənəvi borcudur. "Rəhbərliyin bizə olan yüksək etimadını doğrultmaq üçün hər birimiz məsuliyyətlə və qətiyyətlə xidmət edirik. Sağ olsunlar ki, xidmətimizlə yaxından maraqlanır, yüksək qiymətləndirirlər. Daim xidməti və sosial şəraitimizin yaxşılaşdırılması istiqamətində uğurlu islahatlar aparılır. Biz də üzərimizə düşən məsuliyyəti anlayır, bilik və bacarıqlarımızı təkmilləşdirir və ayıq-sayıq xidmət aparırıq. Hər an istənilən təxribatın qarşısını almağa hazırıq. Şübhəsiz, təltif olunmaq da hər birimizə ruh yüksəkliyi verir. Təltif olunduğumu biləndə çox sevindim və qürurlandım. O günü heç zaman unutmayacam. Həmin anın sevincini, həyəcanını hər an yaşayıram. Bizə göstərilən bu diqqət hər birimiz üçün böyük stimuldur, həm də böyük məsuliyyətdir. Bu, rəhbərliyin bizlərə olan sevgisinin, rəğbətinin, diqqətinin bir daha bariz nümunəsidir. Biz də hər zaman xidmətimizdə ayıq-sayıq olacaq, mövqelərimizi daha inamla qoruyacağıq. Torpaqlarımızın keşiyində dayanmaq biz gənclərin ən müqəddəs vəzifəsidir. Bu vəzifənin vacibliyini yaxşı başa düşür, var qüvvəmizlə çalışırıq ki, bizə olan etimadı doğruldaq", - dedi M.Səfərov.

Hər bir xalqın canı bahasına əldə etdiyi müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasına təminat yaradan ən başlıca amillərdən biri, yüksək döyüş əzminə malik ordusunun mövcudluğudur. Döyüş ruhuna təsir edən amillər arasında ən başlıcası isə yuxarı komandanlıq tərəfindən şəxsi heyətə göstərilən diqqət və qayğıdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə Nazirliyinin rəhbərliyi mütəmadi olaraq bölmələrə yollanır, şəxsi heyətin xidməti və məişət şəraiti ilə maraqlanır, xidmətin təşkilində fərqlənən hərbi qulluqçular mükafatlandırılır. Bu amillər da hərbçilərimizə yüksək əhval-ruhiyyə bəxş edir, xidmətə sevgilərini daha da artırır.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

## Mövqelərimiz atəşə tutulub

İyulun 16-sı saat 02:30 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonu istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Qaraağac yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

İyulun 17-si saat 21:25-dən iyulun 18-i saat 00:15-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus və Dəvəli rayonları istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Malıbəy yaşayış məntəqəsi və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

## "Qəhrəman hərbçilərlə çiyin-çiyinə xidmət etmək qürurludur"

*Üzərinə düşən tapşırıq və vəzifələri bacarıqla yerinə yetirib nümunəvi xidmət edən hərbçilərlə həmsöhbət olmaq ovqatımıza ovqat qatır. Həmin dəqiqələrdə qürur dolu hisslər keçiririk. Budur, nümunəvi xidmətilə seçilən əsgər Əbubəkir Allahverdili ilə söhbət edir, onun ömür və xidmət yolunu vərəqləyirik.*

Öyrənirik ki, Əbubəkir Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində dünyaya göz açıb. Altı yaşı tamam olanda qəsəbədəki 318 nömrəli orta məktəbin birinci sinfində oxumağa başlayıb. Yaddaşlardan heç zaman silinməyən, həmin illərdən söz açan əsgər dedi:

- Oxuduğum təhsil ocağında pedoqoji kollektiv şagirdlərin vətənpərvər ruhda böyümələrinə böyük önəm verirdi. Müəllimlərimiz həm dərslərdə, həm də müxtəlif tədbirlərdə Qarabağ müharibəsində xalqımızın cəngavər oğullarının qəhrəmanlıq dolu ömür yollarından tez-tez söz açırdılar. Vətənpərvərlik mövzusunda aparılan belə söhbətlər erməni işğalçılarına qarşı qisas və intiqam hissimizi artırırdı. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş oğulların xatirəsini həmişə əziz tuturduq. Əlamətdar günlərdə Şəhidlər xiyabanını ziyarət edir, şəhidlərimizin xatirəsini ehtiramla anır, böyüyəndə Vətəni onlar kimi qoruyacağımıza and içirdik. Budur, artıq böyüyüb Vətənə əsgər olmuşam. Üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirəm. Gündən-günə güclənən və daim qüdrətini artıran ordumuzun sıralarında xidmət edirəm. Xidmətə başlayanda komandirlərimdən öyrəndim ki, İkinci Qarabağ müharibəsində bu hərbi hissənin şəxsi heyəti də fəal iştirak edib. Hərbçilərimiz müharibənin davam etdiyi günlərdə üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəliblər. Böyük hünər və qəhrəmanlıqlar göstərərək ölkəmizin hava hüdudlarını düşmən hücumlarından qoruyublar. 44 gün ərzində erməni işğalçılarının raketlərini dəqiq atəş zərbələri ilə zərərsizləşdiriblər. Ölkəmizdəki strateji əhəmiyyətli obyektlərin qəsbkarlar tərəfindən vurulmasının qarşısını qətiyyətlə alıblar. Bütün bunları eşitmək mənim üçün çox sevindirici oldu. Vətən müharibəsində üzərlərinə düşən döyüş tapşırığını böyük hünər və cəsarətlə yerinə yetirən hərbçilərlə çiyin-çiyinə xidmət etmək olduqca qürurludur. Biz əsgərlər qəhrəmanlığı, igidliyi komandirlərimizdən öyrənirik. Onlar tez-tez İkinci Qarabağ müharibəsindən, iştirakçısı olduqları gərgin anlardan söz açırlar. Onları dinləmək biz əsgərlər üçün həm maraqlı, həm də dəyərlidir. Çünki biz bu söhbətlərdən İkinci Qarabağ müharibəsinin tarixini öyrənirik. Qəhrəmanların qürur dolu, zəfər qoxulu söhbətlərinə qulaq asmaq bizim üçün olduqca xoşdur. Ona görə ki, bu söhbətlər qəhrəmanlıq tariximizin şərəfli günlərinin odlu-alovlu xatirələridir.



Mayor Xəyyam Kərimov Əbubəkirin xidməti haqqında qısaca söhbət açdı. Dedi ki, əsgər Ə.Allahverdili üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. Nümunəvi xidməti və davranışı ilə komandirlərinin rəğbətini qazanır. Bütün bu amillər onun Vətən sevgisindən irəli gəlir.

Söhbət zamanı onu da öyrəndik ki, əsgər Əbubəkir Allahverdili ailəlidir, iki uşaq atasıdır. Əminlik hissi ilə demək olar ki, o, Vətən qarşısındakı övladlıq borcunu şərəf və ləyaqətlə yerinə yetirəcək, övladlarının yanına alnıaçıq, başıuca qayıdacaq.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin, döyüşdə isə müvəffəqiyyətin əsas prinsipi və şərtidir

**Suallar:**

**1. Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir.**

**2. Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir.**

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin İntizam Nizamnaməsindən istifadə etməli, bölmədə hərbi intizamın vəziyyətini və xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

### Şüurlu hərbi intizam ordunun həyat və fəaliyyətinin əsas prinsipidir

Güclü ordunun əsası hərbi intizamdır. Hərbi intizamın mahiyyəti nizamnamə və digər qaydalara riayət etməklə ciddi və şüurlu olmalıdır. Azərbaycan Ordusu Azərbaycan Respublikasının suverenliyinin, ərazi bütövlüyünün, onun toxunulmazlığının və mənafeyinin silahlı müdafiəsinə, dövlətə silahlı hücumun qarşısının alınmasına, təcavüz olarsa, onun dəf edilməsinə xidmət edir. Bu müqəddəs vəzifələri yerinə yetirmək üçün ordumuz daim döyüşə hazır vəziyyətdə olmalıdır.

Müasir dövrdə hərbi intizamın rolu əvəzedilməzdir. Ordu Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Ümumdövlət intizamı kimi hərbi intizam da eyni hüquqi və mənəvi prinsiplərə əsaslanır. Hərbi qulluqçular bütün Azərbaycan vətəndaşları kimi Azərbaycan Respublikasının qanunlarının tələblərinə şüurlu surətdə ciddi riayət etməlidirlər. Şüurlu hərbi intizam - yüksək döyüş hazırlığı və döyüş qabiliyyəti ordunun əsas şərtidir.

Bununla yanaşı, orduda Hərbi And içən hərbi qulluqçular Vətənə sadiq olmaqla yanaşı məhrumiyyətlərə və çətinliklərə dözməyə, intizamlı olmağa da and içirlər və andı pozarlarsa, Azərbaycan Respublikasının qanunlarına əsasən, tam ciddiyyəti ilə məsuliyyət daşımağa hazır olduqlarını dərk edirlər. Azərbaycan Ordusunda hərbi intizam İntizam Nizamnaməsi ilə tənzimlənir.

Azərbaycan Ordusunda hərbi intizam hərbi qulluqçuların şüurluluğuna və vətənpərvərlik borclarını dərindən dərk etmələrinə, xalqımızın beynəlmiləlçilik ənənələrinə sadiq olmalarına və Vətənə sonsuz məhəbbət bəsləmələrinə və hərbi intizamın tələblərinə şüurlu surətdə tabe olmalarına əsaslanır.

İntizam Nizamnaməsinin 2-ci maddəsi də hər bir hərbi qulluqçunun hərbi borcunu və öz Vətəni Azərbaycan Respublikasının müdafiəsi üçün şəxsi məsuliyyət daşımasını şüurlu surətdə dərk etməsini tələb edir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində hərbi intizam anlayışı aşağıdakı kimi müəyyən edilir: "Hərbi intizam - bütün hərbi qulluqçuların Azərbaycan Respublikası qanunlarında və hərbi nizamnamələrində müəyyən olunmuş qaydalara ciddi riayət etməsi deməkdir".

Hərbi intizam hər bir hərbi qulluqçudan aşağıda göstərilənləri tələb edir:

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi riayət etməyi, Hərbi Andın və hərbi nizamnamələrin tələblərini dəqiq yerinə yetirməyi, komandirlərin (rəislərin) əmr və sərəncamlarına sözsüz tabe olmağı;
- hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə tab gətirməyi, hərbi borcunu yerinə yetirərkən öz qanını və həyatını belə əsirgəməməyi;
- hərbi və dövlət sirlərini möhkəm saxlamağı;
- namuslu və dürüst olmağı, hərb işini vicdanla öyrənməyi, ona tapşırılan silahı, döyüş texnikasını və digər texnikanı, hərbi əmlakı və xalq əmlakını hər vasitə ilə qorumağı;
- komandirlərə (rəislərə) və böyüklərə hörmət etməyi, əsgəri nəzakət və salamvermə qaydalarına əməl etməyi;
- hərbi hissədən kənarda özünü ləyaqətli və namuslu aparmağı, ictimai asayişin özü və başqaları tərəfindən pozulmasına yol verməməyi;
- vətəndaşların şərəf və ləyaqətinin qorunmasına hərtərəfli səy göstərməyi.

Hər bir hərbi qulluqçu bilməlidir ki, yüksək hərbi intizama nail olmaq olar:

- hərbi qulluqçularda yüksək mənəvi və döyüş keyfiyyətləri və komandirlərə (rəislərə) şüurlu surətdə tabe olmaqla;
- hissədə (bölmədə) nizamnamə qaydalarına ciddi riayət etməklə.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. O, öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur:

- Azərbaycanın mənafeyini qorusun;
- onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin;
- Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına və Hərbi Anda müqəddəs, sarsılmaz surətdə riayət etsin;
- intizamlı, vicdanlı, dürüst və cəsarətli olsun; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin.

### Möhkəm hərbi intizam döyüşdə müvəffəqiyyətin əsas şərtidir

Döyüş - müharibədə qələbə qazanmağın yeganə vasitəsidir. Döyüşdə düşmənin darmadağın edilməsi və qələbə bütün silah növlərinin güclü zərbələri, zərbələrin nəticələrindən vaxtında istifadə etmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkətləri ilə əldə edilir.

Döyüşdə müvəffəqiyyətin qazanılmasında şəxsi heyətin şüurlu hərbi intizamı, komandirlərin əmrlərinin dəqiq və sözsüz yerinə yetirilməsi, intizamsızlığın, zəif icraçılığın, Hərbi Andın və müharibə dövrünün qanunlarının tələblərindən geri çəkilməyin qarşısının qəti alınması, yerli əhaliyə qarşı nalayiq hərəkətlərə və qarətçilik hallarına yol verilməməsi böyük əhəmiyyətə malikdir.

Müasir şəraitdə şəxsi heyətin intizamı və mütəşəkkilliyi aşağıdakılarla bağlıdır:

- hərb işin inkişaf etməsi, hərbi hissələrin yeni növ silahlarla və döyüş texnikası ilə təchiz olunması, döyüş aparma üsullarının kökündən dəyişməsi ilə;
- müasir silahların bir çox növlərinin kollektiv surətdə istifadə olunması, həmin silahların müvəffəqiyyətli tətbiqi ekipaj və heyət üzvlərinin, müxtəlif ixtisaslı hərbi qulluqçuların dəqiq, birgə və bacarıqlı hərəkətlərindən asılılığı;
- hərbi hissələrin yeni müasir silah növləri ilə təhciz edilməsi, bu silahlardan istifadə etmə üsul və qaydalarının öyrənilməsində mövcud olan çətinliklərlə bağlı gərginliyin artması, müasir müharibədə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasının zəruriliyi ilə.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Ermənistanın silahlı qüvvələri tərəfindən təcavüzə məruz qaldı. 1991-1993-cü illərdə Azərbaycan Respublikası ərazisinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi etnik təmizləmə ilə nəticələndi. Həmin illərdə ölkədə ictimai-siyasi vəziyyət qeyri-sabit idi. Ölkədaxili çəkişmələr, respublika rəhbərliyinin dövlət idarəetmə sahəsindəki səriştəsizliyi bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da öz mənfi təsirini göstərirdi. Vahid komandanlığın olmaması pərakəndə hissə və birləşmələrin həyat və fəaliyyətini tənzimləməyə və onlara nəzarət etməyə imkan vermirdi. Bu isə hərbi hissələrdə nizamnamə qaydalarının kobud surətdə pozulmasına, şəxsi heyətin hüquqlarının tapdalanmasına, fərariliyin kəskin surətdə artmasına, döyüş meydanının özbaşına tərk edilməsinə, komandirlərin əmrlərinə və göstərişlərinə tabe olmamağa gətirib çıxarırdı. Belə hərbi hissələrin bütün döyüş əməliyyatları uğursuzluqla nəticələnirdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli xahişi ilə hakimiyyətə qayıtdıqdan sonra ordu quruculuğunu öz xüsusi diqqətinə götürdü və qısa bir müddətdə ordumuzun yüksək döyüş qabiliyyətli olması üçün təsirli tədbirlər gördü. 1993-cü ilin axırlarında, 1994-cü ilin yanvar-may aylarında Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarının uğurlu olmasında vahid komandanlığın, möhkəm şüurlu hərbi intizamın böyük rolu vardır.

Ulu Öndər Heydər Əliyev 1993-2003-cü illərdə ordu quruculuğu ilə bağlı bütün çıxışlarında, Azərbaycan Ordusunun hissə və birləşmələrində şəxsi heyətlə bütün görüşlərində möhkəm hərbi intizamın əhəmiyyətini xüsusi vurğulamışdır. Belə görüşlərdən birində Ulu Öndər Heydər Əliyevin dediyi "Orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır" sözləri bu gün də bütün hərbi qulluqçuların Vətən, xalq və dövlət qarşısında məsuliyyətlərini çox dəqiq ifadə edir və onları intizamlı olmağa çağırır.

2023-cü ilin birinci yarım tədris dövrünün yekunları bir daha göstərir ki, möhkəm hərbi intizam və qayda-qanun hərbi hissə və bölmələrdə yüksək döyüş hazırlığının əldə olunmasının əsas şərtidir. İkinci yarımillikdə isə qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün döyüş hazırlığının yüksəldilməsi, öz vəzifə borclarının şüurlu dərk edilməsi və onların vicdanla yerinə yetirilməsi hər bir hərbi qulluqçudan tələb olunur. Yalnız möhkəm hərbi intizama malik olmaqla komandirlərin əmr və göstərişlərini dəqiq və sözsüz yerinə yetirməklə dərslərdə, təlimlərdə və gələcək döyüşlərdə yüksək nəticələr əldə etmək olar.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Ordusu gücünü 2016-cı ildə qazanılmış Aprel zəfəri, 2018-ci ildə Günnüt qələbiyyəti, Tovuz döyüşləri və eləcə də 2020-ci il sentyabr ayında ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə apardığı "Vətən müharibəsi" beşinci nəsil müharibə uğurları ilə də isbatlayıb. 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsini şərtləndirən amillər əsgərlərimizin vətənpərvərliyi və yüksək döyüş ruhu ilə yanaşı, həm də ordumuzun yüksək hərbi intizama malik olmasıdır.

Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuzun müasir texnika ilə təchizatı, müntəzəm olaraq keçirilmiş təlimlər, ordumuzun döyüş potensialının gücləndirilməsi, hərbi sənayenin yaradılması və idxaldan müəyyən dərəcədə asılılığın azaldılması - bütün bunlar məqsədyönlü şəkildə aparılan siyasətin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev 2023-cü ilin altı ayın yekununa həsr olunan müşavirədə demişdir: "Bundan sonrakı illərdə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir. İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrimizdə aparılan islahatlar hələ başa çatmayıb, o cümlədən struktur islahatları. Biz öz Silahlı Qüvvələrimizi ən qabaqcıl orduların səviyyəsinə çatdırmalıyıq, yəni, təbii ki, Azərbaycan miqyasını nəzərə almaq şərtilə. Struktur islahatları, idarəetmə və özünü müdafiətmə qabiliyyəti nöqteyi-nəzərindən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək".

Ordumuzun döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amil Azərbaycan Ordusunun yeni müasir texnika və silahlarla təhciz edilməsi, hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılmasıdır. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev möbariz əzmi ilə dövlətimizin müdafiə potensialının artırılması və ordumuzun daha da güclənməsi naminə işlər görərək, öz atalıq qayğısını əyani şəkildə nümayiş etdirir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Şəhidlər unudulmur" adlı tədbir keçirilib





Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdən birində torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn qəhrəman Vətən övladlarının xatirəsinə həsr olunan "Şəhidlər unudulmur" adlı tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə Müdafiə Nazirliyinin, Ağdam rayon İcra Hakimiyyətinin və ictimaiyyətin nümayəndələri, şəhidlərin ailə üzvləri və yaxınları, döyüş yoldaşları, hərbi qulluqçular, eləcə də digər qonaqlar iştirak ediblər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəhidlərimizin ruhlarına dualar oxunub, ehsan süfrəsi açılıb.

Anım mərasimində çıxış edənlər torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksələn qəhrəman oğullarımızın



göstərdiyi şücaət nümunələrindən danışıblar. Qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tarixi qələbə qazanaraq şəhidlərimizin qisasını düşməndən layiqincə alıb.

Mərasimdə şəhidlərimizə həsr olunan şeirlər səsləndirilib, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və digər yaradıcı kollektivin nümayəndələri tərəfindən vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqi nömrələri təqdim olunub.

Sonda şəhid ailələri ilə birgə Ağdam rayonu ərazisindəki Şəhidlər xiyabanı və Şahbulaq qalası ziyarət olunub.

# Şəhid zabitin doğum günü qeyd olundu






*Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan Ordusunun zabiti, Vətən müharibəsi şəhidi polkovnik-leytenant Vidadi Xəlilovun doğum gününə həsr olunmuş anım tədbiri keçirildi.*

Kitabxanada keçirilən anım tədbirində Müdafiə Nazirliyinin hərbi qulluqçuları, millət vəkili, şəhid zabitin doğmaları, bir qrup şəhid ailəsi, Vətən müharibəsi iştirakçıları, veteranlar, qeyri-hökumət təşkilatlarının nümayəndələri və başqa qonaqlar iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra tədbir iştirakçıları üçün Vətən müharibəsi şəhidi polkovnik-leytenant Vidadi Xəlilovun şərəfli həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş olundu.

Anım tədbirində millət vəkili Ceyhun Məmmədov, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar və hərbi qulluqçuların ailələri ilə iş üzrə şöbənin müdiri Zümrüd Səmədova, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, Xalq artisti Əbdül Mahmudov, şəhid zabitin döyüş yoldaşı mayor Azər Hacıyev, Vətən müharibəsi iştirakçısı Vüsal Yusifov və şəhid anaları çıxış edərək Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 30 illik işğala 44 gündə son qoyulmasından, Zəfərin qazanılmasında dövlət başçımızın yüksək siyasi və diplomatik bacarığından, Azərbaycan oğullarının göstərdikləri qəhrəmanlıq, fədakarlıq nümunələrindən, xalq-dövlət-ordu həmrəyliyindən, şəhid zabit Vidadi Xəlilovun şanlı döyüş yolundan, milli-mənəvi dəyərlərimizin tarixi köklərindən, Qafqaza, xüsusilə, Şimali Azərbaycana köçürülən ermənilərin bir əsrdən çox xalqımıza qarşı törətdikləri düşmənçilik əməllərindən, vandalizm və soyqırımı aktlarından geniş danışdılar. Şəhidlərimizin xatirəsinin qəlblərdə daim yaşayacağını vurğuladılar. Onların övladlarının xalqımıza əmanət olduğunu dedilər.

Qeyd edək ki, Azərbaycan Ordusunun şəhid zabiti Vidadi Xəlilov Cəbrayılın, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərib. Vətənpərvər zabit düşmən qüvvələrinin məhv edilməsində şücaət göstərərək, oktyabrın 31-də Laçın rayonunun ərazisində gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə polkovnik-leytenant Vidadi Xəlilov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülüb.

Şəhid zabitin anası Əminə xanım, həyat yoldaşı, Səbail MKS-nin direktoru Nərmin Xəlilova çıxışlarında şəhid ailələrinə göstərdikləri yüksək diqqət və qayğıya, onların adlarının daim uca tutulmasına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, eyni zamanda, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

Sonda şəhid zabit Vidadi Xəlilovun xatirəsinə həsr olunan şeirlər səsləndi, musiqilər ifa edildi.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### ABŞ Yaxın Şərqə raketlərlə silahlanmış esmines göndərib



İranın fəaliyyəti nəticəsində regionda gərginliyin artması fonunda ABŞ idarəolunan raketlərlə silahlanmış "USS Thomas Hudner" esminesini Yaxın Şərq regionuna göndərib.

ABŞ Hərbi Dəniz Qüvvələrinin beşinci donanmasına yardım üçün göndərilən esmines iyulun 14-də Süveyş kanalını keçib.

Birləşmiş Ştatlar bundan əvvəl körfəz regionuna F-16 qırıcı təyyarələri qrupu göndərib, A-10 hücum təyyarələri isə ötən həftə Hörmüz boğazı üzərində uçuşlar həyata keçirib.

Bir müddət öncə ABŞ komandanlığı iranlı hərbçiləri Hörmüz boğazında iki neft tankerini saxlamaq cəhdində ittiham edib, sonra isə İslam Keşikçiləri Korpusunu körfəzin beynəlxalq sularında Tanzaniya bayrağı altında üzən tankeri ələ keçirməkdə günahlandırıb.

### Çin və Rusiya Yapon dənizində birgə təlimlərə başlayacaq



Çinin dəniz donanması bazar günü Yapon dənizində Rusiyanın dəniz və hava qüvvələri ilə birgə keçiriləcək "strateji su yollarının təhlükəsizliyini qorumaq" məqsədi daşıyan təlimə qoşulmaq üçün yola düşüb.

Bu barədə Çinin Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik rəsmi WeChat hesabında bildirib ki, beş döyüş gəmisi və dörd gəmi vertolyotundan ibarət Çin donanması şərqdəki Qingdao limanını tərk edib və əvvəlcədən müəyyən edilmiş ərazidə Rusiya qüvvələri ilə bir araya gələcək.

### Ukraynalı pilotlara "F-16" qırıcılarını idarə etmək üçün təlim keçməyə icazə veriləcək



Amerika Birləşmiş Ştatları Avropa ölkələrinə ukraynalı pilotlara "F-16" qırıcılarını idarə etmək üçün təlim keçməyə icazə verəcək.

Bu barədə ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan bildirib.

O qeyd edib ki, ukraynalı pilotlara təlimin keçirilməsi üçün lazım olan resursları hazırlamaq üçün daha bir neçə həftə vaxt lazımdır.

Bundan əvvəl NATO-nun Baş katibi Yens Stoltenberq ukraynalı pilotların "F-16" qırıcıları üçün hazırlanması prosesinin tezliklə başlayacağına inandığını bildirmişdi.

"The Financial Times" yazıb ki, 11 Qərb ölkəsindən ibarət qrup avqust ayından etibarən ukraynalı pilotlara "F-16"-ları idarə etmək üçün təlimlərə başlayacaq. Təlim Danimarkada başlayacaq, tərəflər isə Rumıniyada uzunmüddətli təlim proqramlarının həyata keçirilməsi üçün mərkəz yaradacaqlar.

### Cənubi Koreya, ABŞ və Yaponiya üçtərəfli hərbi təlim keçirir



Cənubi Koreya, ABŞ və Yaponiyanın hərbi dəniz qüvvələri Şimali Koreyanın "Hwasong-18" qitələrarası ballistik raket sınağından sonra üçtərəfli birgə hərbi təlimlərə başlayıb.

Cənubi Koreya mediası xəbər verir ki, Yapon dənizinin beynəlxalq sularında keçirilən təlimlər zamanı real döyüş atışları icra olunacaq. Birgə təlim üç ölkənin Şimali Koreyanın nüvə-raket fəaliyyətinə qarşı təhlükəsizlik tədbirlərini əlaqələndirməsi fonunda keçirilir. Şimali Koreyanın ballistik raket hücumu ssenarisi üzrə keçirilən təlim zamanı şərti raketin aşkarlanması, izlənilməsi, məlumatların paylaşılması üzrə məşq edəcəklər.

Qeyd edək ki, Cənubi Koreya, ABŞ və Yaponiya apreldə də oxşar təlim keçiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

*Tərxis olunan əsgərin düşüncələri*

# “Hər birimiz hərbi sirlərə dərindən yiyələndik”

"N" hərbi hissəsində olduğumuz zaman müddətli həqiqi hərbi xidmətini başa vurmağa hazırlaşan hərbi qulluqçularla tanış olub, söhbət etdik. Uzun-uzadı söhbətimizdən sonra Vətən qarşısında müqəddəs vətəndaşlıq borcunu layiqincə yerinə yetirdikləri zaman ordu sıralarından hansı düşüncələrlə ayrıldıqlarını öyrənmək üçün onlara "Ordu həyatı sizlərə nə aşıladı?" sualını verdim.



İlk həmsöhbətim əsgər Eldəniz Əsgərzadə oldu. Hərbi xidmətinin başa çatmağına sayılı günləri qalan Eldəniz xidməti dövründə yaşananları heç bir zaman unutmayacağını dedi. "Öz canlarını qurban verib torpaqlarımızı düşməndən azad edən qəhrəman şəhidlərimiz Vətəni bizə əmanət edib. Onlar şücaət və qəhrəmanlıq nümayiş etdirərək, düşməndən xalqımızın qisasını aldılar. Belə ki, onların keçdiyi döyüş yolu hər birimiz üçün nümunədir, şərəf və qürur mənbəyidir. Bizim də əsas vəzifəmiz ana Vətənimizi ləyaqətlə qorumaqdır. Bunun üçün peşəkar komandirlərimizin rəhbərliyi altında keçirilən dərsləri daha dərindən mənimsədik”.

- Burada keçirdiyimiz hər bir günün özünəməxsus xatirəsi vardır. İlk dəfə hərbi formanı geyinib sıraya durduğumuz gündən, tərxis olacağımız günə kimi. Xidmətimiz dövründə biz hərbin bütün sirlərinə dərindən yiyələnib, Azərbaycan əsgəri adını şərəflə qoruyub saxlamışıq. Hərbi xidmət insanın mənəvi cəhətdən möhkəmlənməsində mühüm rol oynayır. Çünki burada biz bir sıra insani keyfiyyətlərə - dözümlülük, mərdlik kimi müsbət xüsusiyyətlərə yiyələnirik. Həmçinin özümüzə ömürlük dost qazanmışıq və onu heç bir zaman unutmayacağıq. Bir neçə gündən sonra təxris olacağıma baxmayaraq, biz hər zaman Vətənimizin əsgəriyik, onun müstəqilliyi və müdafiəsi üçün istənilən zaman canımızdan keçməyə hazırıq.

Əsgər Rəşad Məmmədov da hərbi xidmətdə keçirdiyi xoş günlərin xatirələrindən söhbət açdı. Hansı ki, onun yaddaşında silinməz izlər buraxıb. "Ordu sıralarına qatıldığım ilk gün çox darıxırdım. Evdən və doğmalarımdan uzaq qaldığım üçün sıxılırdım. Lakin qısa müddətdən sonra komandirləri və əsgər yoldaşlarımı yaxından tanıdıqda özümü doğmalarımın ətrafındakı kimi hiss etməyə başladım. Peşəkar komandirlərimiz bizimlə çox mehriban rəftar edib, problemlərimizlə yaxından maraqlanırdılar. Hərbi hissəyə gəldiyim gün onlar hər birimizə ailələrimizlə əlaqə saxlamağımız üçün köməklik göstərdilər. Bu gün mən və silahdaşlarım hərbin bütün sirlərinə dərindən yiyələnib, cəsur, qorxmaz, iradəli olmuşuqsa, bu yalnız komandirlərimizin sayəsində oldu. Buna görə 18 ay müddətində üzərimizdə əziyyəti olan bütün zabit və gizirlərimizə minnətdarlığımı bildirirəm. Məhz onların sayəsində biz peşəkar bir döyüşçü kimi formalaşmışıq. Bunlarla yanaşı, xüsusilə demək istəyirəm ki, sosial-məişət şəraitimiz də yüksək səviyyədədir. Heç nədən korluq çəkmirik. Müasir standartlara cavab verən yataqxanamız, yeməkxanamız, idman şəhərciyimiz, ideoloji otağımız istifadəmizdə olub. Belə ki, bu cür hörmətin, diqqətin və qayğının qarşılığında üzərimizə düşən vəzifə rəşadətli Azərbaycan Ordusuna layiqli əsgər olmaq idi. İnanıram ki, ona nail ola bilmişik”.

- Etiraf edim ki, hərbi xidmətimin bitməsinə az qaldığı üçün sevindiyim qədər də kədərlənirəm. Sevinirəm ki, Vətən qarşısında vətəndaşlıq borcumu layiqincə yerinə yetirib, ailəmin yanına başıuca qayıdıram. Kədərlənirəm ki, bu cür günləri, bu ab-havanı bir daha görməyəcəm. Bura mənim üçün doğma bir ocağa çevrilmişdi. Komandirlərin sayəsində mən özümü evimizdəki kimi hiss edirdim. Əsgər yoldaşlarımla keçirdiyim günlər xatirəmdən heç bir zaman silinməyəcək. Xidmət müddətimdə çox biliklər öyrənmişəm. Mərdlik, qorxmazlıq kimi müsbət keyfiyyətlərlə yanaşı, dostluğa sadiq olmaq və ən çətin anda belə dostunun yanında olmağı öyrənmişəm. Çətinliyə dözməyi, müxtəlif şəraitə uyğunlaşmağı bacarıram. Ən önəmlisi isə hərbi xidmət sayəsində gələcək həyatımızda müstəqil ayaqda durmağı öyrənirik. Bu vərdişləri bizə aşılayan komandirlərimizə dərin minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, mülki həyatda onlarla görüşüb, xoş xatirələrimizi bölüşəcəyik. Mən fəxr edirəm ki, rəşadətli və regionun ən güclüsü olan Azərbaycan Ordusunda xidmət edib, tərxis oluram, - bu sözləri isə əsgər Əli Əhmədov dedi.

Əsgər Elçin Verdiyev isə xidməti dövründə ən yaddaqalan və ən qürurverici günlərindən danışdı. "Hər zaman xatırlayacağım gün, Hərbi Andiçmə mərasimi olacaq. Valideyinlərimizin qürurlu baxışları altında bir əlim əsgər yoldaşımın kəmərində, bir əlim silahımda Vətənə sədaqət andı içdik. Həmin günün qüruru, fəxarəti ömürlük yaddaşıma həkk olundu. O an Vətənim Azərbaycana layiqli övlad, layiqli əsgər və layiqli vətəndaş olmağın əhəmiyyətini dərindən anladım. Bunun üçün isə xidmətə başladığım ilk gündən etibarən vəzifəmə məsuliyyətlə yanaşdım, verilən bütün əmr və tapşırıqların öhdəsindən vaxtında və nöqsansız gəldim. Hərbi sirlərə dərindən yiyələndim. Bunun nəticəsidir ki, bu gün hər birimiz peşəkar bir əsgər kimi formalaşmışıq. Bu müddət ərzində bizlərə göstərilən etimada, hörmətə və qayğıya görə bütün komandirlərimizə çox sağ olun deyirəm. Onların sayəsində biz peşəkar döyüşçü və cəmiyyətə yararlı vətəndaş kimi formalaşmışıq".

Əsgər Elmiraz Orucov Vətənimizin hər bir qarışı bizə əmanətdir, deyərək sözə başladı. “Döyüş, atəş, sıra və fiziki hazırlıqlarımızı artıraraq, Vətənimizə göz bəbəyi kimi sahib çıxırıq. Bu yolda isə istənilən an canımızdan keçməyə, torpaqlarımıza əl uzadanların əllərini kəsməyə hazırıq". Daha sonra hərbi xidmətdə qazandığı dostlarından danışdı. - Mən sevinirəm ki, xidməti dövrümdə çoxlu dostlar qazanmışam. İlk gündən etibarən bir-birimizə doğma münasibət göstərdik. Çətinliklərin öhdəsindən bir yerdə gəldik. Möhkəm dostluğumuzun, peşəkar komandirlərimizin təcrübəsi və savadı sayəsində hər birimiz hərbin sirlərinə dərindən yiyələndik. Əminəm ki, bizim əsgər dostluğumuz gələcəkdə ailə dostluğumuza çevriləcək. İllər ötsə belə, bu xoş günləri anbaan xatırlayacağıq.

Əsgərlər Firdovsi Abbaszadə, Şövgi Əmənullayev, Tanrıverdi Hüseynov və digərləri ilə həmsöhbət olduq. Söhbətimiz zamanı onlar hərbi xidmətdə qazandıqları uğurlardan, komandirlərinin onlara bəslədiyi doğma və isti münasibətlərdən, şəraitlərinin yüksək səviyyədə olmasından, hərbi xidmətin onların yaddaşında silinməz izlər buraxdığından və ən önəmlisi isə Vətənimizin müdafiəsində mətin dayandıqlarından uzun-uzadı söhbət etdilər.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

## Dünyanın ən hündür tək dayaqlı piyada körpüsü



***Malayziyada yerləşən dünyanın ən hündür tək dayaqlı piyada körpüsü Qanunq dağının iki zirvəsini birləşdirən dövrümüzün ən inanılmaz körpüsüdür.***

***"Sky Bridge" körpüsü 660 metr yüksəklikdə bir dayağa bərkidilmiş səkkiz kabel üzərində qurulub.***

***Körpü unikal olmaqla dünyada havada asılı qalan ən hündür və yeganə quruluşdur. Bu, xüsusilə küləkli havalarda, nəhəng körpü hərəkət etməyə başlayanda nəzərə çarpır, lakin qeyri-sabit hava şəraitində belə, bütün piyadaların təhlükəsizliyi maksimum dərəcədə həyata keçirilir.***

**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan gimnastları Romada qızıl medal qazanıblar



İtaliyanın paytaxtı Romada bədii gimnastika üzrə "Rome cup" beynəlxalq turnirinə start verilib.

Yarışda ölkəmizi gimnastlarımızdan Nilay Pünhanlı (alətsiz, top), Nərgiz Əliyeva (alətsiz, top), Mişel Aniskina (alətsiz, top), Aylin Yusifli (alətsiz, top), Fatimə Zeynalova (halqa) bütün rəqiblərini üstələyərək qızıl medallar qazanıblar.

Sevindirici haldır ki, Leyla Həsrətova da ona bəslənilən ümidləri doğruldaraq iki qızıl medal (alətsiz, gürzlər) qazanmağa müvəffəq olub.

Sara Atakişiyeva isə gürzlərlə qızıl, topla bürünc medala sahib çıxıb. Komandanın daha bir üzvü Mələk Mahmudlu gürzlərlə hərəkətlərin icrasında bürünc medal əldə edib.

## Azərbaycan paraatleti dünya çempionatında daha bir qızıl medal qazanıb



Azərbaycan idmançısı Lamiyə Vəliyeva Parisdə keçirilən paraatletika üzrə dünya çempionatında daha bir qızıl medal qazanıb.

Təmsilçimiz 400 metr məsafəyə qaçışın final mərhələsində bütün rəqiblərini qabaqlayıb. O, məsafəni 55,34 saniyəyə qət edərək birincilik qazanıb.

Lamiyə Vəliyeva daha əvvəl 100 metr məsafəyə qaçışda dünya çempionu olub.

Qeyd edək ki, bundan əvvəl milli komandanın üzvləri Orxan Aslanov, Lamiyə Vəliyeva, Oloxan Musayev və Səid Nəcəfzadə dünya çempionatında uğurlu çıxış edərək "Paris-2024" Yay Paralimpiya Oyunlarına lisenziya əldə ediblər.

## Güləşçilərimiz 6 medalla Budapeştdə keçirilən reytinq turnirinin qalibi olub




Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə reytinq turnirinə yekun vurulub.

Azərbaycan millisi 6 medalla Budapeştdə reytinq turnirinin qalibi olub.

Azərbaycanın yunan-Roma güləşçiləri turniri 3 qızıl, 2 gümüş və 1 bürünc medalla başa vurub. Millimiz 140 xalla komanda hesabında yarışın qalibi olub. Macarıstan (113) ikinci, İran (98) isə üçüncü yeri tutub.

Xatırladaq ki, Murad Məmmədov (63 kq) qızıl, Nihat Məmmədli (60 kq) isə bürünc medal qazanıb.

## Ronaldo “Ginnesin rekordlar kitabı”na düşüb



Portuqaliyalı futbolçu Kriştiano Ronaldo 2023-cü ildə ən çox gəlir əldə edən idmançı kimi "Ginnesin rekordlar kitabı"na düşüb.

2017-ci ildən bəri ilk dəfə (ümumilikdə isə üçüncü dəfə) Ronaldo dünyanın ən çox qazanan idmançıları siyahısına başçılıq edir.

Məlumata görə, idmançının il ərzində rekord gəliri 136 milyon dollar təşkil edib. Bunun 46 milyon dolları futboldan, 90 milyonu isə reklam müqavilələrindən əldə olunub.

Qeyd edək ki, siyahıda ikinci yerdə illik gəliri 130 milyon dollar olan argentinalı Lionel Messi qərarlaşıb. İlk üçlüyü fransalı Kilian Mbappe qapayıb.

**AZƏRTAC-ın materialları əsasında**


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
| --- | --- | --- | --- | --- | --- | --- |
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98;<br>Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.<br>Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361<br>Sifariş № 406<br>Nüsxə 4725 |